**ADA UNİVERSİTETİ**

**TƏHSİL MƏKTƏBİ**

**TƏLİM VƏ TƏDRİSİN TƏŞKİLİ VƏ METODİKASININ HUMANİTAR ELMLƏR ÜZRƏ**

**MAGİSTR DƏRƏCƏSİ ÜÇÜN TƏLƏBƏLƏRİN QİSMƏN DƏRƏCƏLƏNDİRİLMƏSİ ÜÇÜN**

**LAYİHƏ ƏSASLI TƏDQİQAT TƏQDİM EDİLDİ**

# “KƏND MƏKTƏBLƏRİNDƏ İNGİLİS DİLİ MÜƏLLİMLƏRİNDƏ EMOSİONAL TÜKƏNMƏ PROBLEMİ VƏ MÜMKÜN HƏLL YOLLARI”

**Baytalova Nuran**

**Ragimova Fidan**

**Süleymanova Sevinc**

**Bakı, Azərbaycan**

**© 2025**

**Biz ADA-nın plagiat siyasəti ilə tanış olduq və təsdiq edirik ki, “Kənd məktəblərində ingilis dili müəllimlərində emosianal tükənmə problemi və mümkün həll yolları” adlı bu məqalənin məzmunu bizim öz işimizdir və heç bir təsdiq olunmamış əsəri ehtiva etmir.**

**İmza:__________________________________________**

**İmza:__________________________________________**

**İmza:__________________________________________**

**Tarix:________________________________**

**Təhsil Məktəbi**

**Dövlət Siyasəti və Strategiya: Layihə Əsaslı Tədqiqatın Təsdiq Forması**

Tələbə Adı/ Soyadı: Nuran Baytalova

Tələbənin ID nömrəsi: P000019115

Proqramın adı: MATL (Təlim və Tədrisin Təşkili və Metodikası üzrə Magistr)

Tələbə Adı/ Soyadı: Fidan Rəhimova

Tələbənin ID nömrəsi: P000019133

Proqramın adı: MATL (Təlim və Tədrisin Təşkili və Metodikası üzrə Magistr)

Tələbə Adı/ Soyadı: Sevinc Süleymanova

Tələbənin ID nömrəsi: P000019430

Proqramın adı: MATL (Təlim və Tədrisin Təşkili və Metodikası üzrə Magistr)

**Akademik istiqamətin seçilməsi:**

Tədqiqat istiqaməti　　　　Peşəkar istiqamət

Şərhlər:

Kurs Müəllimi: Dr. Rza Məmmədov

Elmi Rəhbər: Dr. Aydın Əliyev

Təhsil Məktəbinin dekanı: Dr. Ülviyyə Mikayılova

# XÜLASƏ

Bu layihə əsaslı tədqiqat Gürcüstan Respublikasının Cənub bölgəsində fəaliyyət göstərən üç kənd məktəbinin İngilis dili müəllimlərinin emosional tükənmə problemlərinin əsas səbəblərini və onunla mübarizə strategiyalarını araşdırmağı məqsəd qoyur. Layihə əsaslı araşdırmada keyfiyyət metodologiyasından istifadə edilib. Yarı strukturlaşdırılmış müsahibə üsulundan istifadə edilərək toplanmış məlumatlar tematik təhlil edilmişdir. Layihə əsaslı tədqiqatın nəticələri göstərir ki, kənd məktəblərində işləyən müəllimlər müxəlif səbəblərdən emosional tükənmə yaşayırlar. Bunlara aşağı əməkhaqqı, peşəkar inkişaf imkanlarının məhdudluğu, təhsil resurslarının çatışmazlığı, valideyn və həmkar dəstəyinin zəifliyi, şagird motivasiyasının azlığı daxildir. Layihə çərçivəsində müəllimlərə emosional dəstək göstərmək üçün vebinar keçirilmiş və tövsiyələr irəli sürülmüşdür. Bu layihə əsaslı tədqiqat, məktəb rəhbərlərinin və kənd məktəblərində işləyən müəllimlərin peşəkar rifahının təmin olunmasına yönəlik praktik tövsiyələr təqdim edir.

**Açar sözlər: kənd məktəbi, İngilis dili müəllimləri, emosional tükənmə, emosional dəstək**

## Təşəkkürlər

Elmi işimizin ərsəyə gəlməsində əməyi keçən hər kəsə öz təşəkkürümüzü bildiririk.

İlk öncə, Capstone layihəmizdə bizə elmi rəhbərlik edən Dr. Aydın Əliyevə bu müddət ərzində bizə göstərdiyi qayğı, anlayışlı yanaşma və dəyərli tövisyətləri üçün təşəkkür edirik. Tədqiqat əsaslı layihəmizin tamamlanmağında onun rəylərinin böyük əhəmiyyəti oldu. Bizi düzgün şəkildə istiqamətləndirərək qarşılaşdığımız çətinliklərin öhdəsindən gəlməyimizə köməklik etmişdir.

Bu prosesdə bizim hər daim suallarımızı böyük bir səbrlə cavablandıran, işimizə inamla yanaşan və bizim potensialımıza inanan Dr. Rza Məmmədova minnətdarlığımızı bildiririk. Elmi təcrübələri ilə tədqiqatımızı zənginləşdirərək onun yekunlaşmasında əhəmiyyətli rol oynamışdır. Göstərdiyi hərtərəfli dəstək bizim üçün çox dəyərlidir.

Tədqiqatımız Gürcüstan Respublikasının Cənub bölgəsinin üç dövlət məktəbində həyata keçirilib. Bu səbəbdən bizə yaratdıqları şərait üçün həmin məktəblərin rəhbərliklərinə və müsahibədə iştirak edərək suallarımızı səmimi şəkildə cavablandıran müəllimlərə sonsuz təşəkkürümüzü bildiririk.

Layihəmizin həyata keçirilməsi zamanı ailəmizin bizə göstərdiyi mənəvi dəstək danılmazdır. Onlar ən çətin anlarımızda da belə bizi dəstəkləyərək ən böyük motivasiya qaynağımıza çevrilib və ruhdan düşməməyimizə səbəb olublar. Həmişə yanımızda olduqları üçün hər birinə minnətdarıq.

# Mündəricat

**I FƏSİL** ........ **8**

**GİRİŞ** ........ **8**

Problemin ifadəsi ........ 9

Layihənin aktuallığı ........ 10

Layihənin məqsədi və tədqiqat sualı ........ 11

Layihənin məhdudiyyətləri ........ 12

**II FƏSİL** ........ **13**

**NƏZƏRİ ÇƏRÇİVƏ** ........ **13**

Tükənmişlik ........ 13

Müəllimlərdə emosional tükənmə və başlıca səbəblər ........ 15

Emosional tükənmənin mümkün həll yolları ........ 19

**III FƏSİL** ........ **22**

**METODOLOGİYA** ........ **22**

Layihənin dizaynı ........ 22

Tədqiqat sahəsi ........ 23

Nümunə ölçüsü və seçmə strategiyası ........ 23

Tədqiqat aləti ........ 23

Məlumatların toplanması ........ 24

Məlumatların təhlili ........ 25

Etibarlıq və validlik ........ 25

Layihənin etik mülahizələri ........ 26

**IV FƏSİL**......................................................................................................................**27**

**Tapıntılar**.......................................................................................................................**27**

**V FƏSİL**.........................................................................................................................**41**

**Nəticə və təkliflər**........................................................................................................**41**

**VI FƏSİL**.......................................................................................................................**46**

**Son Məhsul**....................................................................................................................**46**

**Ədəbiyyat**......................................................................................................................**53**

Əlavələr...............................................................................................................................60

Əlavə A...............................................................................................................................60

Əlavə B...............................................................................................................................61

Əlavə C...............................................................................................................................62

# FƏSİL I

# GİRİŞ

Müəllimlərin emosional sağlamlığı tədris prosesinin keyfiyyətinə təsir edən əsas amillərdən biridir. Bəzən müəyyən səbəblər müəllimlərin emosional sağlamlıqları üzərində ağır təsirlər yarada bilər. Müəllimlərdə təsvir edilən psixi sağlamlıq problemləri arasında emosional tükənmə daha geniş yer alır. Emosional tükənmə ümumi emosional və zehni tükənmə halı olub stresə uzun müddət məruz qaldıqda yaranır (Maslach, Schaufeli & Leiter, 2001). Müəllimin emosional tükənməsi onların öhdəsindən gələ bilməyəcəkləri çoxlu stress faktorları ilə uzun müddət mübarizə aparmalı olduqda baş verir (García-Arroyo & Osca, 2017).

Əgər iş imkanları müəllimlərin tələblərinə və ya təhsil dəyərlərinə uyğun gəlmirsə, müəllimlər stress yaşaya bilərlər. Hər bir müəllimin fiziki, əqli və emosional rifahı onun müəyyən bir vəziyyətdə hiss etdiyi stressin miqdarından təsirlənir (Skillern vd, 1990). Belə ki, iş yüklərinin, tapşırıqların və yeni öhdəliklərin artması, iş mühitinin pozulması, tədris müstəqilliyinin azalması, materialların və avadanlıqların olmaması və sinif otaqlarının qeyri-müəyyən vəziyyəti müəllimlərin enerjisini və motivasiyasını tükəndirir, onların peşə fəaliyyətinə qarşı maraq və həvəsini azaldır (Skaalvik & Skaalvik, 2010 ) . Bu çətinliklər, yalnız müəllimlərin şəxsi rifahını deyil, həm də tədris prosesinin ümumi keyfiyyətinə mənfi təsir edə bilər, xüsusilə də kənd məktəblərində ingilis dili tədrisi kontekstində. Kənd məktəblərində müəllimlərin emosional tükənməsi, həm fiziki, həm də emosional baxımdan ciddi bir problem olaraq qəbul edilə bilər. Emosional tükənmə sindromu, müəllimlərin iş yükünün çoxluğu, resursların azlığı və sosial dəstəyin məhdudluğu kimi müxtəlif amillərin nəticəsində meydana gələ bilər (Maslach & Leiter, 2016).

Kənd məktəblərində ingilis dilinin tədrisi kontekstində emosional tükənmə təkcə ayrı-ayrı müəllimlərə deyil, həm də şagirdlərə verilən təhsilin keyfiyyətinə ciddi təsir göstərə bilər. Kənd məktəbləri tez-tez məhdud resurslar, daha böyük şagird-müəllim nisbəti və mədəni maneələr kimi

problemlərlə üzləşirlər ki, bu da müəllimlərin motivasiyasına, tədris strategiyalarına və müsbət öyrənmə mühiti yaratmaq qabiliyyətinə təsir edir ( Davidson, 2009).

Kənd məktəblərində müəllimlər arasında olan gərginliyin aradan qaldırılması keyfiyyətli tədris və öyrənmə prosesinin təşviqi üçün çox vacibdir, çünki bu vəziyyət şagirdlərin və onların öyrənmə mühitinə mənfi təsir göstərə bilər. Təlimin effektivliyinin yüksəldilməsi, eləcə də tədrisin keyfiyyətinin və şagirdlərin nəticələrinin yaxşılaşdırılması müəllimlərin rifahından asılı ola bilər.

**Problemin ifadəsi**

Emosional tükənmənin mənfi təsirləri həyatın hər sahəsinə, o cümlədən ev, iş və sosial həyata təsir edir (Məmmədova, 2022). Müəllimlərin emosional tükənməsi bu gün təhsil sistemini narahat edən problemlərdən birinə çevrilmişdir, çünki müəllimlərin psixi və emosional sağlamlığının tükənməsi və fiziki rifahının azalması onların öz rollarını səmərəli yerinə yetirmək qabiliyyətinə mənfi təsir göstərə bilər. Müəllimlər mənfi emosiyalarla intensiv şəkildə qarşılaşdıqda, şagirdlərlə keyfiyyətli münasibətlər yaratmaq və saxlamaqda gözlənilən davranışları nümayiş etdirməkdə, sinif otaqlarını effektiv idarə etməkdə və şagirdlərin öyrənməsinə dəstək verməkdə çətinlik çəkirlər (Whitaker, Dearth-Wesley & Gooze, 2015).

Mulaudzi (2018) qeyd edir ki, kənd məktəblərindəki şərait tədrisin keyfiyyətinə təsir edir. Bir çox məktəbdə, xüsusilə kənd yerlərində, müəllimlərin stress keçirməsi daim narahatlıq yaradır. Kənd məktəblərində müəllimlər arasında gərginliyin aradan qaldırılması, keyfiyyətli tədris və öyrənmə prosesinin təşviqi üçün vacibdir. Bu vəziyyətin davam etməsi, şagirdlərin və müəllimlərin təlim mühitinin mənfi təsirlərə məruz qalma potensialını artırır. Müəllimlərin təhsil alanlara və tədris proqramlarına göstərdiyi təsir, xüsusilə tədrisin keyfiyyəti baxımından digər amillərlə müqayisədə dəfələrlə daha güclüdür (Darling-Hammond, 2000).

Emosional tükənmə səviyyəsi yüksək olan müəllimlər sinfi idarə etmək üçün daha az effektiv strategiyalara üstünlük verirlər və şagirdlərin nizam-intizam problemləri ilə daha çox çətinlik çəkirlər (Chang, 2009). Belə müəllimlər, şagirdlərə uyğun və əlverişli tədris mühiti yaratmaqda çətinlik çəkir və bu da nəticə etibarilə şagirdlərin uğur səviyyəsinin azalmasına səbəb

ola bilər. Müəllimlərin emosional tükənməsi, tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə azaldaraq onların effektivliyini aşağı səviyyəyə endirir (Klusmann vd, 2008). Tükənmə təhsilin keyfiyyətinin aşağı düşməsinə səbəb olaraq işdən çıxmaq, işdə digər işlərlə məşğul olmaq, işi ləngitmək və işi tərk etmək kimi davranış və nəticələr ortaya çıxara bilər (Maslach & Leiter, 2016).

**Layihənin aktuallığı**

Müasir dövrdə müəllimlərin emosional tükənməsi problemi xüsusilə aktualdır, çünki bu problem yalnız fərdi səviyyədə müəllimlərin iş qabiliyyətinə deyil, həm də təhsil sisteminin ümumi keyfiyyətinə və inkişafına mənfi təsir göstərir (Mijakoski, 2022; Mahmoodi-Shahrebabaki, 2019). Evers, Tomic və Brouwers (2004) tərəfindən aparılan tədqiqatda müəllimlərin emosional tükənməsi, onların peşə fəaliyyətinə olan münasibətlərini, motivasiyalarını və iş qabiliyyətini zəiflədir.

Şəhər məktəbləri ilə müqayisədə kənd məktəblərində müəllimlər məhdud resurslarla işləmək məcburiyyətində qalır, bu isə onların peşə fəaliyyətinə qarşı motivasiyasını azaldır və emosional tükənmə riskini yüksəldir. Tədris materiallarının və texnoloji vasitələrin çatışmazlığı, iş yükünün artması, həmçinin resurs məhdudiyyətləri bu problemin daha da dərinləşməsinə səbəb olur (Brouwers & Tomic, 2000).

Xarici dil müəllimlərinin vəziyyəti xüsusilə diqqətəlayiqdir, çünki xarici dilin tədrisi prosesində müəllimlər yalnız yüksək metodiki və dil biliklərinə malik olmaqla kifayətlənməməli, həm də şagirdlərin mədəni və fərdi xüsusiyyətlərini nəzərə alaraq inklüziv və interaktiv yanaşmalar tətbiq etməlidirlər (Richards & Rodgers, 2014). Bu yanaşma həm müəllimlərdən əlavə emosional və intellektual yük tələb edir, həm də onların peşə fəaliyyətinə olan maraqlarının tətbiqini çətinləşdirir.

Gürcüstan kimi inkişaf etməkdə olan ölkələrdə təhsil sektoru daha çox çətinliklərlə üzləşir və müəllimlər bu çətinlikləri həll etmək üçün daha çox səy göstərmək məcburiyyətində qalırlar.Gürcüstandakı ingilis dili müəllimlərinin vəziyyəti bu çətinliklərlə daha da aktuallaşır, çünki resurs məhdudiyyətləri, siniflərdəki müxtəliflik və yüksək gözləntilər onların emosional

tükənmə riskini artırır (Bicadze, 2013). Bu şərait onların emosional rifahına mənfi təsir edir və nəticədə emosional tükənmə problemini daha da aktuallaşdırır (Bicadze, 2013).

Bu layihə, Gürcüstanın kənd məktəblərindəki İngilis dili müəllimlərin emosional tükənmə problemi haqqında spesifik bir araşdırma təqdim edir. Bu mövzu ilə bağlı əvvəlki tədqiqat mövcud olsa da, kənd məktəblərində bu məsələnin necə baş verdiyi və necə həll edilə biləcəyi barədə təhlil aparılmamışdır. Layihə kənd məktəblərinin xüsusi şəraitində bu məsələnin araşdırılmasına diqqət yetirir. Layihə əsaslı tədqiqatın nəticələri təhsil sahəsində maraq doğuraraq müəllimlərə müxtəlif proqramlar hazırlayan və həyata keçirən təşkilatlar üçün faydalı ola bilər. Əldə olunan nəticələr həmçinin unversitetlərdəki müəllim hazırlıq proqramları və gələcəkdə müəllim olmaq istəyənlər və hal-hazırda fəaliyyət göstərən müəllimlər üçün yararlı ola bilər.

**Layihənin məqsədi və tədqiqat sualı**

Bu layihə əsaslı tədqiqatın əsas məqsədi Gürcüstan Respublikasının Cənub bölgəsinin kənd məktəblərində fəaliyyət göstərən ingilis dili müəllimlərində emosional tükənmə problemini hərtərəfli araşdırmaqdır. Layihə əsaslı tədqiqatın ilk mərhələsində emosional tükənmənin yaranmasına səbəb olan əsas faktorları müəyyənləşdirilib. Təhlilin ikinci mərhələsində isə, müəyyən edilmiş faktorların təsirini azaltmaq və emosional tükənməni minimuma endirmək üçün məqsədyönlü və praktik yanaşmalar təklif edilib. Bu layihə əsaslı tədqiqat, emosional tükənmə problemini dərindən anlamaq və müəllimlərin peşəkar inkişafına təsirlərini araşdırmaq məqsədi daşıyır.

Layihənin məqsədinə əsaslanan tədqiqat sualı aşağıdakıdır:

- Kənd məktəblərində ingilis dili müəllimlərinin emosional tükənmə səbəbləri və mümkün həll yolları nələrdir?

**Layihənin məhdudiyyətləri**

Hər bir layihənin məhduduiyyətləri olduğu kimi, bu Capstone layihəsinin də məhdudiyyətləri var. Capstone layihəsinin məhdudiyyətləri aşağıdakılardır:

- Gürcüstanın yalnız Cənub bölgəsini əhatə edir.
- Tədqiqat Gürcüstanın üç dövlət məktəbində aparılıb.
- Capstone layihəsi 2024-2025-cü tədris ilini əhatə edib.
- İştirakçılardan yalnız iki kişi müəllim iştirak etmişdir və bu da gender balansını bir qədər pozmuşdur.

# FƏSİL II

## NƏZƏRİ ÇƏRÇİVƏ

Bu hissədə capstone ilə əlaqəli olaraq nəzəri və konseptual çərçivə təqdim edilmişdir. Belə ki, bu capstone layihəsində kənd məktəblərində işləyən müəllimlərin emosional tükənmə, emosional